ƏSRİMİZİN DƏRVİŞİ

Bu günlərdə tanınmış türkoloq, ədəbiyyatşünas, jurnalist və tərcüməçi, Bakı Dövlət Universiteti türk xalqları ədəbiyyatı kafedrasının müdiri, filologiya elmlər doktoru Ramiz Əskərin 60 yaşı tamam olur.

2006-cı ilin dekabrında Yazıçılar Birliyinin Natəvan adına klubunda Mahmud Kaşğarinin "Divanü lüğat-it-türk" əsərinin Azərbaycan dilinə tərcüməsinin təqdimat mərasimi idi. Mən də çıxış elədim. Əsər barədə danışdım, onun müəllifi haqqında bir neçə kəlmə dedim, sonra da təbii olaraq tərcüməçi Ramiz Əskər barədə öz ürək sözlərimi bildirdim.

Biz onunla gənclik dövründən bəri dostuq, ürək dostu, əqidə-məslək dostuyuq. Eyni amala xidmət edirik. İkimiz də türkçüyük, millətçiyik, dövlətçiyik. Mən Ramizin mərhum ata-anasını, əmilərini tanıyırdım, qardaşlarını, ailə üzvlərini, uşaqlarını tanıyıram.

1986-cı ildə Leninakan-Kars dəmiryolu ilə Türkiyəyə getmişdim. Səfərdən bir-iki gün əvvəl maşınla Amasiya rayonunun Əzizbəyov (Qaraçanta) kəndinə, Ramizgilə gedərək onlarda qonaq olduq. Tanınmış el ağsaqqalı, dil-ədəbiyyat müəllimi olan atası Baxşəli müəllim bizi sonsuz sevinclə qarşıladı, ayağımızın altında qurban kəsdi, şərəfimizə ziyafət verdi. Bütün kənd görüşümüzə gəldi. Sonra Məmməd Aslan, Fərman Kərimzadə, Amil Avey və Ramiz kənddə qalıb dincəldilər, mən isə Türkiyəyə yola düşdüm.

Bir ay sonra qayıdıb gördüm ki, Baxşəli müəllim həyətin kənarında saxladığım maşınımı kartof sahəsinin içilə sürdürərək evin qabağına apartdırıb, üstünə də çadır örtdürüb. Neçə cərgə kartofun sıradan çıxmasına çox heyfim gəldi. Mənə dedi ki, sənin maşının küçədə qalsa, mən rahat yata bilməzdim. Bir neçə gün kənddə qaldım, Baxşəli müəllimlə çoxlu şahmat oynadım. Heç bircə oyun da uda bilmədim, "elimin-günümün əziz şairi" deyib bütün oyunları uddu. Məmməd Aslan onu bu cür qiymətləndirmişdi: "Baxşəli müəllim Arpa gölünə düşmüş balinadır". (Arpa gölü Amasiyada yerləşir). Sonra Ramizin kiçik qardaşı Əlini (indi ABŞ-da professordur) və qızı Leylanı (indi Dubayda AzTV-nin müxbiridir) maşınıma qoyub Bakıya qayıtdım. Ramizin ailəsi, əmiləri, kəndin adamları məndə çox xoş təəssürat oyatdı. Bütün bunları deməkdə məqsədim bu ailəyə bəslədiyim ən səmimi duyğularımı göstərmək üçündür. Sonra ulu Tanrının inayəti ilə həyatımı həmin kənddən olan və Ramizgilə də uzaq qohum düşən Tənzilə xanımla birləşdirdim.

Natəvan klubundakı çıxışıma qayıdıram. Mən dedim ki, Ramizi və Əskərovlar ailəsini heç kim mənim qədər yaxından tanımır. Onların ziyalılığına və mədəniyyətinə, əsalətinə və nəcabətinə mən yaxşı bələdəm. Biz Ramiz kimi təmiz və təmənnasız, xeyirxah, savadlı və yurdsevər insanı haradan tapacağıq ki, bu cür əsərləri pulsuz-parasız, sifarişsiz, honorarsız tərcümə eləsin? İndiki kapitalizm şəraitində belə adam yoxdur. Bir alim demişdi ki, "Divan"ı tərcümə etməyə hazırdır, qoy dövlət ona gözəl şərait yaratsın, maaşını saxlamaqla 4 il işdən azad eləsin, yaxşı qonorar versin, o da tərcümə ilə məşğul olsun. Əslində, doğru demişdi, hər şeyin bir əvəzi olmalıdır. Bu qayda hamıya şamil ola bilər, Ramizdən başqa. Onun həyatı buna sübutdur.

80-cı illərin sonunda baş verən hadisələri xatırlayın. O dövrdə mən "Azərbaycan" qəzetinin baş redaktoru idim. Ramiz isə "Odlar yurdu" qəzetinin baş yazarı idi. Onda da qələmi ilə vətənə təmənnasız xidmət elədi. Milli şüuru oyatdı, millətə gerbi, bayrağı, himni, ADR-i quranları tanıtdı, qürbətdə möhnət çəkənləri tapdı. O, yeganə mətbuat orqanı idi ki, tək bir nüsxəsi də geri qayıtmırdı, qəzetin adından baş redaktorun adına qədər hər sətri oxunurdu. həm də bu qəzet üç əlifba ilə (ərəb, latın, kiril) çıxırdı. Məncə, bugün də bizim belə bir milli qəzetə ehtiyacımız var.

Mən "Yazıçı" nəşriyyatının baş redaktoru olanda məşhur tarixçi Faruq Sümərin "Oğuzlar" əsərinin tərcüməsini ona sifariş etmişdim. Ramiz qısa müddətdə tərcüməni təhvil verdi. Əsər 8.500 nüsxə tirajla nəşr olundu, bir həftəyə satılıb qurtardı. Sonra məlum oldu ki, Ramiz bir qəpik də qonorar ala bilməyib. Bir ara kassada pul yox imiş, sonra da nəşriyyatın rəhbərliyi pul ödəməkdən imtina edib.

Ramiz Əskərin xarakterinin başqa bir cəhətindən söz açmaq istəyirəm. O, ildə 5-6, bəzən daha çox kitab yazır və ya tərcümə edir, öz vəsaiti hesabına nəşr etdirir, sonra da hamısını bağışlayır. Bunun üçün Monqolustandan vurub Qırğızıstandan çıxır, Özbəkistandan vurub Qazaxıstandan çıxır, Türkmənistandan vurub Türkiyədən çıxır. O, yeganə alimdir ki, Altaya, Tuvaya, Xakasiyaya, Monqolustana gedir, Orxon və Yenisey abidələrini öz gözü ilə görüb kitab yazır. Türk dünyasının hər yerində onu tanıyırlar. Uyğurlar isə bizdən yalnız onu tanıyırlar. Buna şəxsən özüm şahidəm.

Ramiz Əskər Azərbaycan ədəbiyyatına Yusif Balasağunlunun "Qutadğu bilig", Bahəddin Ögəlin "Türk mifologiyası" əsərlərini, Sultan Hüseyn Bayqara, Babur, Mehri xatun, Məxdumqulu, Molla Nəfəs, Abdulla Tukay, Bəkir Çobanzadə kimi dühaların kitablarını bəxş etmişdir. Türkmən və özbək şeiri antologiyalarını, "Türk ədəbiyyatı tarixi"ni çevirmişdir. Mən hələ "Monqolların gizli tarixi"ni, Əli Ağbaşın, Todur Zanetin, Oraz Yağmurun kitablarını demirəm.

Belə adama bir ad yaraşır: "Əsrimizin dərvişi". Başqa heç bir ad onun təbiətini və xidmətlərini ifadə edə bilməz.

Sabir RÜSTƏMXANLI,
Xalq şairi, millət vəkili.

Dəyərli tədqiqat əsəri

Hər bir tanınmış yazıçının, sənət adamının, alimin həyat və yaradıcılığı haqqında yazılan tədqiqat əsəri həm elmi, həm də pedaqoji baxımdan mühüm əhəmiyyət kəsb edir. Həmin prizmadan yanaşsaq, AMEA Folklor İnstitutunun doktorantı, "Xan qızı Natəvan" mükafatı laureatı Günel Almazın "Rafiq Yusifoğlu poeziyasında sənətkarlıq axtarışları" monoqrafiyası da müəllim və tələbələr, gənc tədqiqatçılar üçün faydalı bir vəsaitdir. Bu yaxınlarda ADPU nəşriyyatında işıq üzü görən 450 səhifəlik həmin kitabın elmi redaktoru filologiya elmləri doktoru, professor Zahid Xəlil, rəyçiləri isə filologiya elmləri doktoru, professor Ramazan Qafarlı, filologiya üzrə fəlsəfə doktoru, dosent Füzuli Əsgərlidir. Monoqrafiyada görkəmli şair, ədəbiyyatşünas, Azərbaycan Respublikasının Əməkdar mədəniyyət işçisi, "Qızıl qələm", "Vətən", "Araz", "İlin ən yaxşı kitabı" və başqa ədəbi mükafatların laureatı, filologiya elmləri doktoru professor Rafiq Yusifoğlunun bənzərsiz poeziyası tədqiqat obyekti seçilmişdir. Bu da təsadüfi deyildir. Bundan əvvəl "Azərbaycanın görkəmli elm və mədəniyyət xadimləri" rubrikası altında Mədəniyyət və Turizm Nazirliyi və F.Köçərli adına Respublika Uşaq Kitabxanasının hazırlayıb nəşr etdirdiyi "Rafiq Yusifoğlu" biblioqrafik göstəricilər kitabının tərtibçisi olan Günel Almaz bu yolda axtarışlarını davam etdirmiş, tanınmış şair, alim, pedaqoq haqqında daha sanballı bir əsər yarada bilmişdir.

Monoqrafiya Rafiq Yusifoğlunun yaradıcılıq yolu haqqında oxucuda dolğun təsəvvür yaradır. Gənc alim Rafiq Yusifoğlunun poeziyasını tədqiq edərkən görkəmli yazıçı və ədəbiyyatşünaslardan Süleyman Rüstəmin, Bəxtiyar Vahabzadənin, Nəbi Xəzrinin, Anarın, Qasım Qasımzadənin, Nəriman Həsənzadənin, Tofiq Mahmudun, Hikmət Ziyanın, Məmməd Aslanın, Zahid Xəlilin, Ağa Laçınlının, Yaşar Qarayevin, Nizami Cəfərovun, Himalay Qasımovun, Zaman Əsgərlinin, Vaqif Yusiflinin, Tehran Əlişanoğlunun, Adil Cəmilin, Flora Xəlilzadənin və başqalarının fikirlərinə istinad etmiş, bununla da əsərinin elmi dəyərini xeyli dərəcədə artıra bilmişdir. Mətbuatda Rafiq Yusifoğlu haqqında dərc edilən bir məqaləni də nəzərdən qaçırmayan Günel Almaz şairin şeirlərini özünəməxsus bir tərzdə təhlil etməyi bacarmışdır. Monoqrafiya "Rəngarəng mövzular, problemlər poeziya aynasında", "Yaradıcılıq problemləri", "Ənənəyə söykənən novator poeziya", "Rafiq Yusifoğlu poeziyasının bədii strukturu" adlı dörd fəsildən ibarətdir. "Ulu yaradana məhəbbət motivləri", "Həyat və ölüm haqqında fəlsəfi düşüncələr", "Sevgi lirikası", "Uşaq qəlbinin sehrli memarı" , "Bədii həqiqət axtarışları", "Sətiraltı məna", "Peyzaj", "Bədii portret", "Dil və üslub məsələləri", "Nağıldan həyata açılan qapı", "Klassik ədəbi irsə məhəbbət motivləri", "Dünya ədəbiyyatı ənənələri", "Ədəbi janrlar",

"Vəznlər", "Qafiyə sistemi" adlı bölmələr həm tədqiqatın istiqaməti, həm də gənc alimin elmi-nəzəri səviyyəsi, onun zəhmətsevərliyi, Rafiq Yusifoğlu yaradıcılığına, eləcə də Azərbaycan poeziyasına yaxından bələdliyi haqqında dolğun elmi təsəvvür yaradır.

Ümid edirik ki, Günel Almazın "Rafiq Yusifoğlu poeziyasında sənətkarlıq axtarışları" adlı monoqrafiyasını oxucular və ədəbi ictimaiyyət maraqla qarşılayacaqdır.

Arzu ƏLİYEVA.

Bakıda cüdo üzrə açıq şəhər birinciliyi keçirilmişdir

Bakı, 8 yanvar (AzərTAc). Bakı Şəhər Gənclər və İdman Baş İdarəsi (BŞGİBİ) tərəfindən Şagan Olimpiya İdman Kompleksində cüdo üzrə Bakı şəhər açıq birinciliyi keçirilir.

İdarədən bildirmişlər ki, yarışlarda 2000-2001 təvəllüdlülər arasında 10 çəki üzrə 348 nəfər idmançı iştirak etmişdir.

Nəticələrə görə oğlanlar arasında Aydın Fezullayev (30 kq), Nazir Talıbov (34 kq), Məhəmməd Məmməquliyev (38 kq), Kənan Əliyev (42 kq), Rüfət Məmmədov (46 kq), Feyzulla Quliyev (50 kq), Böyükağa Süleymanov (55 kq), Rza İsmayılov (60 kq), Knyaz Mahmudlu (66 kq) və Süleyman Yaqubov (66 kq-dan yuxarı) fəxri kürsünün ən yüksək pilləsinə qalxmışlar. Qızlar arasında yarışda isə Vüsalə Kərimova (32 kq), Fazilə Aslanova (36 kq), Günay Məmmədova (40 kq), Məleykə Məmmədova (52 kq), Kəmalə Hacızadə (57 kq), Fidan Hüseynova (63 kq), Rahidə Cavadova (44 kq) və Günel Bəkirzadə (48 kq) birinci yerlərə layiq görülmüşlər.

İlk üç yerləri tutmuş idmançılar Baş İdarə tərəfindən müvafiq dərəcəli diplomlar və xatirə hədiyyələri ilə mükafatlandırılmışlar. ■

❑ SURİYA İLƏ BAĞLI KONFRANSA DƏVƏTLİ ÖLKƏLƏR MƏLUM OLDU

Suriya ilə bağlı Montrö və Cenevrədə keçiriləcək beynəlxalq konfransda iştirak etmək üçün 30 dövlətin və 3 təşkilatın nümayəndə heyətləri dəvət alıb. "APA"nın verdiyi xəbərə görə, bunu Nyu-Yorkda keçirilən mətbuat konfransında BMT-nin mətbuat katibinin müavini Fərhan Hak bildirib.

BMT rəsmisinin sözlərinə görə, dəvətlilərin siyahısı Rusiya, ABŞ və BMT nümayəndələrinin görüşündə açıqlanıb. Dəvət olunan təşkilatlar Ərəb Dövlətləri Liqası, Avropa Birliyi və İslam Əməkdaşlıq Təşkilatıdır.

Beynəlxalq konfransda BMT Təhlükəsizlik Şurasının 5 daimi üzvündən başqa, Əlcəzair, Braziliya, Almaniya, Danimarka, Misir, Hindistan, İndoneziya, İordaniya, İraq, İspaniya, İtaliya, Kanada, Qətər, Küveyt, Livan, Mərakeş, Norveç, BƏƏ, Oman, Səudiyyə Ərəbistanı, Türkiyə, İsveç, İsveçrə, CAR və Yaponiya da iştirak edəcək.

Məlumat üçün qeyd edək ki, yanvarın 22-də Montrödə işə başlayacaq beynəlxalq konfrans yanvarın 24-də Cenevrədə Suriya hökuməti və müxalif qruplar arasında keçiriləcək danışıqlarla davam edəcək.

❑ MƏHƏMMƏD MURSİNİN MƏHKƏMƏ PROSESİ TƏXİRƏ SALINIB

Misirin devrilmiş prezidenti Məhəmməd Mursinin Qahirədə keçirilən məhkəməsi təxirə salınıb. Rəsmilərin sözlərinə görə, pis hava şəraiti səbəbindən onun helikopteri uça bilməyib. Bu barədə "BBC" agentliyi xəbər verib.

Digər müttəhimlər helikopterlə qapalı polis binasına gətirilib, amma Məhəmməd Mursinin hələ də İskəndəriyyədə olduğu bildirilir.

Eyni zamanda, müttəhimlərdən biri israrla məhkəmə prosesinin konstitusiyaya zidd olduğunu söyləyib.

"BBC"nin verdiyi xəbərə görə, çərşənbə günü səhər saatlarında müttəhimlərin bəzilərini daşıyan helikopter Qahirədəki Milli Polis Akademiyasının kompleksinə gətirilib.

Əvvəl ölkə mediası Məhəmməd Mursinin də orada olduğunu bildirsə də, "Mena" dövlət agentliyi daha sonra onun gəlişinin pis havaya görə təxirə salındığını qeyd edib.

Məhkəmə prosesi yerli vaxtla 11:15-də başlasa da, dərhal fevralın 1-nə qədər təxirə salınıb.

Məhəmməd Mursi və "Müsəlman qardaşları"nın 14 üzvü 2012-ci il dekabrın 12-də prezident sarayının qarşısında etirazçıların öldürülməsinə təhrikdə ittiham olunur.

Qeyd edək ki, hakimiyyətinə qarşı etirazlardan sonra Məhəmməd Mursi ötən ilin iyul ayında ordu tərəfindən devrilib. Bundan sonra tərəfdarları onun vəzifəyə qaytarılmasını tələb etmək üçün müntəzəm olaraq etiraz aksiyaları keçirirlər.

❑ MUSƏVİ VƏ KƏRRUBİNİN İŞİ MƏHKƏMƏDƏ ARAŞDIRILIR

İran müxalifətinin liderlərindən olan və üç ildən artıq ev dustaqlığında saxlanılan Mirhüseyn Musəvi və Mehdi Kərrubinin işi məhkəmə orqanları tərəfindən araşdırılır. "APA"nın İran mətbuatına istinadən verdiyi məlumata görə, bunu İran Məhkəmə Sisteminin rəis müavini Məhəmmədcavad Laricani bildirib.

Eyni zamanda, İranın İnsan Haqları Təşkilatı katibinin sözlərinə görə, 2009-cu il hadisələri unudulmayıb: "Sadəcə, hər iki şəxsin istintaqının uzadılması bəlkə də onların İran İslam Respublikasında müsbət keçmişə malik olmalarına görədir. Məhkəmə rəsmiləri zamanı gəldiyində lazımi məlumatı verəcək".

Qeyd edək ki, İran müxalifətinin liderlərindən olan Mirhüseyn Musəvi və onun həyat yoldaşı Zəhra Rəhnəvərd ev dustaqlığında, Mehdi Kərrubi isə İran İnformasiya, Təhlükəsizlik və Kəşfiyyat Nazirliyinə (ETTELAT) məxsus xüsusi təcridxanalarından birində saxlanılır. Onların həbsdə saxlanılmalarının artıq min günü tamam olub.

Ailəsi İran prezidenti Həsən Ruhanidən M.Kərrubinin ETTELAT-dan öz evinə dustaqlığa köçürülməsini xahiş edib.

Xatırladaq ki, Mirhüseyn Musəvi İranın baş naziri, Mehti Kərrubi isə İran parlamentinin sədri vəzifəsini icra ediblər.

❑ DÜNYA MƏTBUATI ALMANİYADAKI HADİSƏLƏRƏ GÖZ YUMUR

Almaniyanın Hamburq şəhərində bir mədəniyyət mərkəzinin boşaldılmasından sonra dekabrın 21-dən etibarən başlayan hadisələr davam edir. Avropa və ABŞ mətbuatında çox az yer verilən hadisələri dünyanın ən mühüm xəbər agentlikləri diqqətdən kənar saxlayır. Bu barədə "TRT" telekanalı xəbər verib.

Qeyd edək ki, solçu qrupların 25 ildir ki, görüş yeri olan Rote Flora Mədəniyyət Mərkəzi hadisələri Almaniyada müxalifətin böyük reaksiyasına səbəb olmuşdu.

"TRT"nin məlumatına görə, ölkə rəhbərliyinin sanki hərbi vəziyyət elan etdiyi hadisələrə xarici mətbuatın biganə münasibəti "ikili standart"ın tətbiqi iddialarını gündəmə gətirib.

Türkiyə və Ukraynadakı hadisələrə dərhal reaksiya göstərən Avropa Birliyinin səssizliyi də diqqət çəkicidir.

Hamburq sakinlərindən və müxalifətdən olan millət vəkilləri isə mədəniyyət mərkəzinin boşaldılması və "təhlükəli ərazi" elan edilməsini "insan hüquqlarının pozulması" kimi dəyərləndirir.

Vəziyyət hələlik nəzarət altına alınmış kimi görünsə də, polis hadisələrin başqa ərazilərə də yayılmasından ehtiyat edir.

Hadisələr zamanı Avropa və ABŞ mətbuat orqanlarının məsələ ilə əlaqədar biganəliklərini davam etdirib etdirməyəcəkləri də maraq mövzusudur.

❑ CƏNUBİ SUDANDA QARŞIDURMALAR DAVAM EDİR

Cənubi Sudanda qarşıdurmalar səngimək bilmir. Yaşanan şiddətin sona çatması üçün Sudanın dövlət başçısı Ömər əl-Bəşir hərəkətə keçib. Prezident paytaxt Cubada Cənubi Sudanın dövlət başçısı Salva Kiir ilə görüşüb. Dövlət başçıları arasında təxminən iki saat davam edən görüşdən sonra mətbuat konfransı keçirilib. Bu barədə "TRT" xəbər verib.

Cənubi Sudanda yaşanan hadisələrlə bağlı silahlı mübarizənin heç bir fayda verməyini deyən Ömər əl-Bəşir problemin dialoqla həll edilməsinin vacib olduğunu bildirib.

Cənubi Sudanın dövlət başçısı Salva Kiir isə hərbi gücdən istifadə edərək, iqtidarı ələ keçirmənin cinayət olduğunu və bunun beynəlxalq cəmiyyət tərəfindən qınanmasının vacibliyini önə sürüb.

Sudanın Xarici İşlər Nazirliyindən verilən açıqlamada da iki ölkənin Cənubi Sudanın əhəmiyyətli neft sahələrini qorumaq üçün razılaşdıqları və Sudanın bu məqsədlə əlavə hərbi güc göndərəcəyi ifadə edilib.

Eyni zamanda, Cənubi Sudanın neft sənayesində ən böyük investor mövqeyində olan Çin isə təcili atəşkəs çağırışı edib. Çinin xarici işlər naziri ölkədə sabitliyin təmin edilməsi üçün əllərindən gələni edəcəklərini söyləyib.

Xatırladaq ki, Cənubi Sudanda ötən il dekabrın 15-də başlayan qarşıdurmalarda minlərlə adam həlak olub. Qarşıdurmalar səbəbilə 190 min adam da evlərini tərk etmək məcburiyyətində qalıb.

❑ ŞİMALİ AMERİKADA SƏRT ŞAXTALI HAVA ŞƏRAİTİ DAVAM EDİR

Şimali Amerikada rekord dərəcədə müşahidə olunan şaxtalı hava şəraiti davam edir. ABŞ-ın 50 ştatının hamısında havanın temperaturu 0 dərəcədən aşağı enib. Arktik boran nəticəsində yaranmış görünməmiş dərəcədə soyuq havaların təsirinə 190 milyon insan məruz qalıb. Bu barədə "BBC" agentliyi xəbər verib.

ABŞ-ın mərkəzi və qərb bölgələrində havanın temperaturu mənfi 26 dərəcəyə, yəni qış mövsümündə Antarktikada qeydə alınan temperatur səviyyəsinə çatıb. Bu isə qeyd olunduğu kimi, məişət soyuducusunun dondurucu kamerasında olan temperaturdan da aşağıdır.

ABŞ-ın Alabama, Corciya, Tennessi, Arkanzas, Miçiqan, Merilend, Ohayo, Pensilvaniya və Nyu-York ştatlarında şaxtalı havanın temperatur göstəriciləri rekord vurub.

Ölkə üzrə rekord dərəcədə ən aşağı temperatur isə çərşənbə axşamı Minnesota ştatının Embarras qəsəbəsində qeydə alınıb: mənfi 37 dərəcə.

Bu göstərici isə bu yaxınlarda Mars Rover kosmik aparatından alınmış məlumata əsasən hətta Qırmızı Planetdə müşahidə edilən temperatur göstəricisindən də aşağıdır.

Kəskin soyuq havalar ABŞ-da nəqliyyat daşımalarına da ciddi təsir göstərərək 2700-dək uçuşun təxirə salınmasına səbəb olub.

Kanadanın Ontario bölgəsində isə mənfi 30 dərəcədə şaxta qeydə alınıb. Nəticədə Pearson beynəlxalq aeroportunda uçuşlar bir neçə saat ərzində dayandırılmışdı. ■

"LUKOYL-Azərbaycan" QSC tərəfindən keçirilən tenderdə iştirak etmək məqsədi ilə TENDER ELANI

Hörmətli xanımlar və cənablar!

Biz, bununla Bakı ş., Səbail rayonu, Z.Tağıyev küç. 13-də yerləşən "LUKOYL-Azərbaycan" QSC-ya yuyucu və təmizləyici malların təchizatı üçün bir etaplı açıq tenderdə iştirak etməyə Sizi dəvət edirik:

Tender haqqında ümumi məlumat:

Sifarişçi: "LUKOYL-Azərbaycan" QSC; ünvanı; Səbail rayonu, Z.Tağıyev küç. 13, əlaqə telefon: (012) 497-41-29, (050) 688-89-70, E-mail: ilqar@lukoil-az.org. Tender üzrə əlaqəli şəxs İ.L.Həsənov

Xidmətin müddəti: tenderin yekununa görə

Tenderdə iştirak etmək üçün ərizələrin təqdimi və tender sənədlərinin alınması müddəti - bu elanın dərc edildiyi tarixdən 20 təqvim günü.

Tender təklifləri 31 yanvar 2014-cü il tarixinədək yuxarıda qeyd olunan ünvana təqdim edilməlidir.

Tender 10 fevral 2014-cü il tarixində keçiriləcək.

Tender təkliflərinin qüvvədə olma müddəti 90 təqvim günündən az olmamalıdır.

Tenderin qalibi ilə , tender başa çatdıqdan sonra, 20 təqvim günü ərzində müqavilə bağlanacaqdır.

Tenderdə iştirak üçün "ərizə" forması, habelə tender haqqında tam məlumatları yuxarıda qeyd olunan telefon və elektron poçtu vasitəsi ilə almaq olar.

Tender komitəsi.

Azərbaycan Tibb Universitetinin "Təbib" istirahət düşərgəsinin yenidən qurulması ilə əlaqədar layihə smeta sənədlərinin hazırlanması üçün AÇIQ TENDER ELAN EDİR

Tender 1 Lot üzrə aparılır :

Lot-1. "Layihə smeta sənədlərinin hazırlanması"

Tender iştirakçılarına təklif edilir ki, öz tender təkliflərini möhürlənmiş, imzalanmış, ikiqat zərfdə yazılı surətdə təqdim etsinlər. Müqavilə il ərzində yerinə yetirilməlidir.

Təkliflərin qiymətləndirilməsində və müqayisəsində aşağıdakı meyarlara üstünlük veriləcəkdir.

-texniki şərtlərin yerinə yetirilməsi, aşağı qiymət, yüksək keyfiyyət, müqavilənin vaxtında yerinə yetirilməsi, analoji işlərdə təcrübəsi, maliyyə vəziyyəti.

Müqaviləni yerinə yetirmək üçün tender iştirakçıları lazımı maliyyə və texniki imkanlara malik olmalıdırlar.

Tenderdə iştirak etmək istəyənlər Lot üzrə aşağıdakı məbləğdə iştirak haqqını göstərilən hesaba köçürdükdən sonra Azərbaycan dilində tərtib olunmuş tenderin əsas şərtlər toplusunu Bakı şəhəri, Nəsimi rayonu, Bakıxanov küçəsi - 23 ünvanda yerləşən Azərbaycan Tibb Universitetindən ala bilərlər.

Əlaqələndirici şəxs: Aydın Xəlil oğlu Vəliyev , telefon 597- 42 - 60

İddiaçılar iştirak haqqını aşağıdakı hesaba köçürməlidirlər: İştirak haqqı 200 manat

Təşkilat: Azərbaycan Tibb Universiteti VÖEN : 1400457111

Kitab 002794 fond 7 maddə 142340

H\hesab AZ26CTRE00000000000004198201

Bank: Dövlət Xəzinədar Agentliyi

VÖEN Bank : 1401555071

Kod : 210005

M\hesabı : AZ41NABZ01360100000000003944

S.W.İ.F.T. Bik : CTREAZ22

İştirak haqqı heç bir halda geri qaytarılmır.

İddiaçılar tenderdə iştirak etmək üçün aşağıdakı sənədləri təqdim etməlidirlər:

- tenderdə iştirak etmək üçün ərizə;

- tenderdə iştirak haqqının ödənilməsi barədə bank sənədi;

- tender təklifi (zərflərin açıldığı gündən ən azı 30 bank günü müddətində qüvvədə olmalıdır);

- tender təklifi qiymətinin 1 faizi həcmində (təklifin təminatı)bank zəmanəti (zərflərin açıldığı gündən sonra ən azı 60 bank günü müddətində qüvvədə olmalıdır);

- Azərbaycan Respublikasında vergilərə və digər icbari ödənişlərə dair yerinə yetirilməsi vaxtı keçmiş öhdəliklərin olması haqqında müvafiq vergi orqanlarından arayış;

- iddiaçının son bir il ərzində fəaliyyəti haqqında vergi orqanları tərəfindən təsdiq olunmuş maliyyə hesabatının surəti ;

- iddiaçının son bir il ərzində maliyyə vəziyyəti barədə bank tərəfindən verilmiş arayış;

- iddiaçının tam adı, hüquqi statusu, nizamnaməsi, qeydiyyatdan keçdiyi ölkə və rekvizitləri.

- iddiaçıya layihə-smeta sənədlərinin hazırlanması üçün aidiyyatı orqanları tərəfindən verilmiş lisenziya

Sənədlər Azərbaycan dilində 2 nüsxədə (əsli və surəti) tərtib olunmalıdır (rus və ya ingilis dilində olan təkliflərə onların Azərbaycan dilinə tərcümə edilmiş surətləri əlavə edilməlidir).

Bütün iddiaçılar tenderdə iştirak etmək üçün yuxarıda göstərilən sənədləri (tender təklifi və bank zəmanəti istisna olmaqla) 09 yanvar 2014-cü il tarixədək, tender təkliflərini və bank zəmanətini isə möhürlənmiş ikiqat zərfdə 17 fevral 2014-cü il saat 17:00-dək Azərbaycan Tibb Universitetinə (Bakı şəhəri, Bakıxanov küçəsi-23) təqdim etməlidirlər.

Göstərilən vaxtdan gec təqdim olunmuş zərflər açılmadan geri qaytarılacaqdır.

Təklif zərfləri 20 fevral 2014-cü il saat 11:00-da yuxarıda qeyd olunan ünvanda açılacaqdır.

İddiaçıların səlahiyyətli nümayəndələri iştirak edə bilərlər.

Tender Komissiyası.